

Aslan QANDARÇI
professor

# Tələt Paşanın soyqırımı əmr edən məxfi teleqramı olubdurmu?

## Saxta "erməni soyqırımı"na məşhur türk aliminin layiqli cavabı

*Soyqırımı iddiasını Osmanlı siyasətinə bağlamağa çalışan erməni təbliğatı bu haqda bir qərarın olduğunu təsdiqləmək üçün müxtəlif vasitələrə əl atır. Guya Tələt Paşa tərəfindən verilən belə bir əmr-teleqraf Hələb şəhərindəki Türk komandanı Alen bəyin iqamətgahından tapılmışdır. Guya bu teleqraflar Nəim bəy adlı bir Osmanlı məmurunda olmuşdur. Aram Antonyan adlı bir erməni yazarı bu teleqrafların surətini 1920-ci ildə yayımlamış, eyni zamanda Tələt Paşanı Berlində qətlə yetirən Soğomon Teqleryanın mühakiməsi zamanı məhkəməyə də təqdim etmişdir. Məhkəmədə bunların 3-ü baxılmaq üçün qəbul edilsə də, ancaq dəlil kimi önə çəkilməmiş, ona görə də hər hansı bir qərar qəbul edilməmişdir. Digər erməni iddiaları kimi bu iddianın da gerçəklə heç bir əlaqəsi yoxdur.*

Zira bu teleqraflar 1922-ci ildə İngiltərədə çap edilən «Daylin tele-qraf» qəzetində yayımlanmışdır. İngilis xarici işlər nazirliyi bununla əlaqədar məlumat yaymışdır ki, belə bir gizli əmr Hələbdəki Alen bəyin rəhbərlik etdiyi hərbi qüvvələrin iqamətgahında tapılmayıb, Parisdəki bir erməni təşkilatı tərəfindən saxtakarcasına yazılmışdır. Teleqrafların yazılış forması və yazılan kağızların Osmanlı ilə heç bir əlaqəsi olmadıqları açıqca görünməkdədir.

İngilislər və fransızlar İstanbulun işğalından sonra guya ermənilərə qarşı edilən soyqırımın günahkarlarını cəzalandırmaq məqsədilə "günahkarların" həbsinə başlamışlar. Osmanlı Hürriyyət və İttilat hökuməti İttihat və Tərəqqi partiyasına və onun üzvlərinə qarşı olan düşmənçilik mövqeyinə görə işğalçı qüvvələrə bu xüsusda əlindən gələn hər cür yardımı etmişdir. İstanbuldakı məhkəmə İttihat və Tərəqqi partiyasının 4 üzvünü edam cəzasına məhkum etmiş, 3 nəfərinin isə edam cəzasını həyata keçirmişdir. Daha sonralar bu edam cəzalarının yalançı şahidlərin ifadələrinə əsasən verildiyi aşkar olunacaqdır. İngilislər Maltaya sürgün etdikləri məhbuslar əleyhinə hər yerdə məlumat axtarmağa başlamışlar. Osmanlı Hürriyyət və İttilat hökumətinin də yardımlarına baxmayaraq heç bir fakt əldə edə bilməmiş, ABŞ arxivlərinə müraciətləri də nəticəsiz qalmışdır. Bu arxivlərdən soyqırım iddialarını təsdiqləyən faktlar ələ keçməmişdir. Vaşinqtondakı İngilis səfirliyi bununla əlaqədar İngilis xarici işlər nazirliyinə belə bir cavab göndərmişdir: «Maltada həbsdə saxlanılan türklər əleyhinə heç bir dəlilin olmadığını bildirmək məcburiyyətindəyəm». İngilis xarici işlər nazirliyi bundan sonra İngilis krallığının istintaq idarəsinə müraciət edir: «İndiyədək heç bir şahiddən həbsdə olanların suçlarının doğruluğunu təsdiqləyən bir fayda alınmamışdır. Bu xüsusdan hər hansı bir şahidin də tapılıb tapılmayacağı bəlli deyildir». Nəticə olaraq Maltada həbsdə saxlanılanların günahsız olduqları təsdiqlənir və 1921-ci ilin sonlarında azad edilirlər. İngilislərin bu teleqraflara rəğbət etməmələri bunların uydurma olduqlarını təsdiq edir.



TƏLƏT PAŞA

Antonyanın «sənədlərinin» saxta olduğunu təsdiqləyən aşağıdakı faktlar da vardır. Antonyan saxta sənədlərin həqiqi Osmanlı sənədləri olduğunu sübut etmək üçün Hələb şəhərinin valisi Mustafa Əbdül Xalid bəyin imzasını qoymuşdur. Ancaq hal-hazırkı arxivlərdə saxlanılan Mustafa Əbdül Xalid bəyin imzasını daşıyan bir çox sənədlər tədqiq ediləndən sonra Antonyanın «sənədlərindəki» imzanın saxta olduğu ortaya çıxmışdır. Antonyanın Mustafa Əbdül Xalid bəyin imzasını daşıyan saxta sənədlərin birində bir tarix verilib. Daxili İşlər Nazirliyi ilə Hələb şəhərinin valiliyi arasındakı yazışmalara aid sənədlərin birində haqqında söhbət gedən tarixdə Hələb şəhərinin valisi Mustafa Əbdül Xalid bəy deyil, Bəkir Sami bəy olmuşdur. Antonyanın saxta sənədləri bunu deməyə əsas verir ki, o, ya müsəlman-rumi təqvimi ilə xristian təqvimi arasındakı fərqlərdən tamamilə xəbərsizdir, ya da bu sənədləri hazırlayarkən fərqlər gözündən qaçmışdır. Diqqətsizliyi nəticəsində tarixlərdə və qeydiyyat nömrələrində buraxdığı xətalar bu sənədlərin doğruluğuna şübhə yaradır. Daxili İşlər Nazirliyinin şifrələri incələndikdə nazirliyin şifrə tarixləri də nömrələrilə Antonyanın saxta sənədlərində yer alan tarix və nömrələmə sistemi arasında heç bir bənzərlik olmadığı, Antonyanın hazırladığı saxta şifrəli teleqraflar ilə Daxili İşlər Nazirliyinin Hələbə göndərdiyi gerçək şifrəli teleqraflar arasında bir əlaqənin olmadığı ortaya çıxmışdır. Antonyanın «şifrəli teleqraflarının» türkcə «orijinal»ları ilə Osmanlı şifrəli mesajları qarşılaşdırılaraq belə bir nəticəyə gəlinmişdir ki, istifadə edilən şifrə sistemləri arasında hər hansı bir əlaqə yoxdur. Antonyan sənədlərini gerçək kimi göstərmək üçün heç istifadə edilməyən, ümumiyyətlə mövcud olmayan bir şifrələmə metoduna əl atmışdır. Saxta sənədlərin üzərlərindəki tarixlərdən Osmanlıların guya altı ay boyunca eyni şifrələmə sistemindən istifadə etdikləri nəticə olaraq çıxır ki, bu da imkansızdır. Çünki həmin dövrdə, müharibənin getdiyi bir zamanda istifadə edilən şifrələr sistemi iki aydan bir dəyişdirilirdi. Antonyanın iki saxta sənədində yer alan Besmeleyin əcəmcə yazılı şəkli də gerçək sənədlərdəkilərlə müqayisə edildikdə, yenə də Antonyanın sənədlərinin saxta olduğu ortaya çıxır. Çünki bu əcəmicə yazı şəkli Osmanlılarda müsəlman olmayanların Osmanlıcanı bilsələr belə, Besmeleyi yazışmalarda heç vaxt istifadə etməyiblər. Antonyanın bir çox saxta sənədlərində yer alan cümlə xətaları, yazı yanlışlıqları, bir çox deyim və ifadələrin Osmanlı türkü tərəfindən heç vaxt istifadə edilə bilməyəcəyi saxtalığı bir daha təsdiqləyir.

Guya Türklərin suçlarını öz ağızlarından etiraf etdiklərini Antonyanın ön plana çəkməsi bu xüsusda diqqəti cəlb edir. Bu saxta sənədlər - üzərində Osmanlı hakimiyyətinin istifadə etdikləri rəsmi simvolların heç biri olmayan düz, bəyaz kağızlardan başqa bir şey deyildir. Saxta sənədlərdən biri Osmanlıların özəl yazışmalarda belə istifadə etmədikləri cizgili kağıza, digər ikisi də istənilən Osmanlı poçtxanasından alına bilən adi boş poçt kağızlarına yazılmışdır. İngilislərin hadisələrlə əlaqədar həbs etdikləri Osmanlı vətəndaşları əleyhinə canfəşanlıqla dəlillər əldə etmək istədiyi bir vaxtda, onların Antonyanın «faktlar»ına biganə qalmaları, onları qəbul etməmələri sənədlərin saxta olduğunu göstərir. Antonyan tərəfindən uydurulan sənədlər əgər var olmuş olsaydı belə, «çox gizli» qrifini daşıdıqları üçün həmin sənəd teleqraf yolu ilə deyil, kuryer vasitəsilə göndərilməli idi. Özü də bu üç il ərzində ələ keçməsin deyə, həmin sənədlər aiddiyyatı yerinə çatar çatmaz məhv edilməli idilər.

Antonyanın kitabının ingilis və fransız dillərindəki nəşrləri arasında bir çox fərqli cəhətlər vardır. Hətta ermənilərə yaxın dairədə olanlar belə Antonyanın faktlarına olan şübhələrini gizlətmirdilər. Qısası, «məşhur Tələt Paşa teleqrafları» Antonyan və onun yaxın dairəsi tərəfindən uydurulmuş yalandan başqa bir şey deyildir. «Neareast Relyef Societti» adlı Amerikan xeyriyyə cəmiyyətinin ermənilərə yardım etmək üçün müraciətlərinə Osmanlı hökuməti icazə vermişdir. ABŞ-ın İttifaq dövlətləri sırasında Osmanlılara qarşı savaşa girməsindən sonra belə, bu quruluşun Anadoluda qalmasına icazə verilmişdir. Bu hal ABŞ-ın səfiri Elkusun raportlarında da öz əksini tapmışdır. Əgər həqiqətdə türklər ermənilərə qarşı soyqırımı edirdilərsə, İstanbulda Amerikan xeyriyyə cəmiyyətinin fəaliyyət göstərməsinə, ola biləcək soyqırımı gözləri ilə görməsinə necə icazə verə bilərdi? Belə çıxır ki, biz onlara deyirdik ki, biz erməniləri qətlə yetiririk, siz də baxın. Bu absurddur, heç bir məntiqə sığmır. İstanbul, qərbi Anadolu və Trakyada, hətta Orta Anadoluda yaşayan ermənilərin heç bir soyqırımı hadisəsi olmamışdır. Onlar sadecə olaraq başqa ərazilərə köçürülmüşdür. Nəhayət, əgər Türkiyə hökuməti ermənilərə qarşı soyqırımı etmək fikrində olsaydı, bunu bütün dövlətlərin diqqətini üzərinə çəkərək deyil, erməniləri yaşadıqları yerlərdə, əsas da cəbhələrə yaxın yaşadıqları yerlərdə həyata keçirə bilərdi.

**Beləliklə, ermənilərin soyqırım iddiası yalandan başqa bir şey deyildir, soyqırım heç bir zaman olmamışdır.**